# Xalqın şairi

*(Xalq şairi Bəxtiyar Vahabzadə ilə bağlı xatirələrim)*

Mən şairlə ilk dəfə 1958-ci ildə məktub vasitəsi ilə tanış olmuşdum. Məktubumun cavabını belə yazmışdı:

«Hörmətli oxucum, siz məni Səməd Vurğundan sonra ən istedadlı şair hesab edirsiniz. Sizin etimadınızı doğrultmağa çalışaram. Hələlik isə mənə işləmək lazımdır ki, böyük və qiymətli xalqımızın adına layiq kiçik bir övlad olam».

Əyani tanışlığım isə 1960-cı ildə xalq yazıçısı Süleyman Rəhimovun evində olub. 1965-ci ildə evində olduğum zaman bahar bayramı idi. Çox sadə, təvazökar adam idi. Onunla söhbət edəndə elə bil bir neçə illərin tanışı ilə söhbət edirdin. Bahar bayramı günlərində böyük bir qabda bahar şirniyyatları və bişintiləri gətirib özü çay gətirəndə xəcalət çəkdim. Dedim ki, şair, mən xəcalət çəkirəm, elə eləyin ki, mən bu evə bir də gəlim. Əlini qaldırıb dedi ki, bizi yaradana and olsun, mən öz qonağıma özüm xidmət edəndə ondan xüsusi zövq alıram. Sən ondan narahat olma. İstər çoban olsun, istər iş yoldaşları.

Müxtəlif sahələrdən, xüsusən poeziyadan danışanda onun şeirlərindən əzbər deyərdim. Deyirdi ki, həkim, sənin nə gözəl yaddaşın var. Bunların heç birini mən əzbər bilmirəm. Sovet dönəmində yazdığı şeirlərin çoxunun mətbuatda dərc edilmədiyini, guya siyasi səhv olduğu üçün senzuradan keçmədiyini bildirdi. Buna sübut üçün «Qəmərvan» şeirini xüsusi qeyd etdi. O şeir N. Xruşşov dövründə yazılmışdı. Xeyli sandıqda qaldı, yalnız bu bəndə görə:

***Əgər boş olarsa başçının başı,***
***Camaat işləyər, nahaq tər tökər.***
***Ağılda zəhməti bir yol yoldaşı,***
***Başın bəlasını ayaqlar çəkər.***

Həmçinin torpaqlarımızın hissə-hissə ermənilərə verilməsindən can yanğısı ilə danışırdı. Bəxtiyar müəllim bir də o vaxtkı rəhbərlərin yalnız Moskvanın əmrlərini sözsüz yerinə yetirmələrini qınayırdı. 1937 - 1939-cu illərdə ermənilərin başda Anastas Mikoyan olmaqla Lavrenti Beriyanın qılığına girib Azərbaycanın Daxili İşlər Nazirliyinə bütün erməniləri - bizim düşmənlərimizi yerləşdirdiyindən ürək ağrısı ilə danışırdı. Deyirdi ki, həkim, bizim 3 mindən artıq ziyalılarımız Nargin adasında, ümumiyyətlə, 40 mindən artıq qədirbilən insanlarımız güllələnmişdir. Güc nazirliyində bir nəfər də olsun azərbaycanlı yox idi. Əksinə bütün şöbələrdə ermənilər idi.

1. Məxfi siyasi işlər şöbəsinin müdiri Qriqoryan Xoren İvanoviç. 2. Ümumi şöbə müdiri Armayis Akopyan. 3. Kəşfiyyat şöbə müdiri Edik Martirosyan. 4. Əks kəşfiyyat şöbə müdiri İvan Xancanyan. 5. İstintaq şöbə müdiri Camqaryan. 6. Xüsusi işlər şöbəsinin müdiri Arutunyan. 7. Təsərrüfat işləri şöbəsinin müdiri Ambarsumyan. 8. Daxili işlər komissarının müavini Markaryan.

Bəxtiyar Vahabzadə xalqın şairi idi, cismən həyatda olmasa da, yenə də ruhən xalqın şairidir. Nəsillər bir-birini əvəz etdikcə o, elə xalqın şairi olaraq da əbədi yaşayacaqdır.

**Abbasəli NƏSİROV,**
**təqaüddə olan həkim stomatoloq.**

# Narkotiklə mübarizədə milli iradə və hüquqi tərəqqi

***"Narkomaniyaya qarşı mübarizə bütün cəmiyyətin işidir və bu sahədə səylər daim artırılmalıdır."***

**Heydər Əliyev**

Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyevin narkomaniyaya qarşı mübarizə sahəsində söylədiyi bu sözlər, bu gün də öz aktuallığını qoruyur. XXI əsrdə qlobal narkotik təhlükəsi yalnız bir ölkənin və ya regionun problemi deyil, bütün insanlığın sağlamlığına, təhlükəsizliyinə və sabitliyinə yönəlmiş ciddi təhdiddir. 2025-ci ilin reallıqları göstərir ki, narkotik maddələrin növləri, yayılma yolları və istifadəyə aparan sosial-psixoloji səbəblər mürəkkəbləşmişdir. Bu səbəbdən narkomaniya ilə mübarizə də çoxşaxəli və elmi əsaslara söykənən kompleks yanaşma tələb edir.

Narkomaniya təkcə insan sağlamlığını dağıdan bir xəstəlik deyil, eyni zamanda sosial sistemin bütün təbəqələrini çökdürə biləcək bir təhlükədir. Narkotiklərdən istifadə halları yalnız fərdi sağlamlıq problemləri yaratmır, həm də ailə institutunu zəiflədir, gənclərin potensialını sıradan çıxarır, cinayət hallarını artırır və nəhayət, milli təhlükəsizlik üçün risklər yaradır.

Azərbaycan Respublikası narkomaniyaya qarşı mübarizədə ardıcıl və strateji xətt yürüdür. "Narkotik Vasitələrin, Psixotrop Maddələrin və Onların Prekursorlarının Qanunsuz Dövriyyəsinə və Narkomanlığa qarşı Mübarizə üzrə Dövlət Proqramı" çərçivəsində preventiv tədbirlərin genişləndirilməsi, maarifləndirmə proqramlarının gücləndirilməsi, reabilitasiya xidmətlərinin əlçatanlığı, hüquqi mexanizmlərin təkmilləşdirilməsi əsas istiqamətlər kimi müəyyənləşdirilmişdir. Eyni zamanda hüquq-mühafizə orqanlarının texniki imkanlarının gücləndirilməsi, sərhəd nəzarət sistemlərinin modernləşdirilməsi və beynəlxalq əməkdaşlığın genişləndirilməsi bu istiqamətdə mühüm rol oynayır.

Narkomaniya ilə mübarizənin yalnız cəza yanaşmasına əsaslanması artıq müasir dövrdə yetərli sayılmır. Alimlərin və psixoloqların apardığı tədqiqatlar göstərir ki, narkotikdən istifadə edən şəxslərin əksəriyyəti sosial təcrid, erkən yaşda psixoloji travmalar, ailədaxili zorakılıq və təhsil sistemində uğursuzluq kimi faktorların təsiri altında bu vəziyyətə düşürlər. Bu baxımdan, mübarizə yalnız hüquqi çərçivədə deyil, həm də sosial reabilitasiya, psixoloji dəstək və təkrar inteqrasiya proqramları ilə müşayiət olunmalıdır. Xüsusilə gənclər arasında narkotiklərə qarşı immunitetin formalaşdırılması üçün təhsil müəssisələrində davamlı və sistemli maarifləndirmə, həmçinin ailələrin psixoloji hazırlığı vacib amillərdən sayılır.

Eyni zamanda, medianın və internet platformalarının rolu da bu kontekstdə mühüm yer tutur. Sosial şəbəkələrdə narkotik istifadəsini romantikləşdirən və ya zərərsiz kimi təqdim edən kontentlərin qarşısının alınması, rəqəmsal mühitdə müsbət nümunələrin və real nəticələrin geniş yayılması prioritet məsələlərdəndir. Respublikamızda bu sahədə müvafiq monitorinq və mübarizə mexanizmləri gücləndirilmiş, kibertəhlükəsizlik strukturunda bu istiqamətə xüsusi diqqət ayrılmışdır.

Narkomaniya ilə effektiv mübarizə üçün dövlət strukturları ilə yanaşı, qeyri-hökumət təşkilatlarının, dini icmaların, ailələrin və media nümayəndələrinin fəal iştirakı təmin edilməlidir. Bütün bu sahələrin koordinasiyalı fəaliyyəti yalnız hüquqi çərçivədə deyil, həm də insani və etik müstəvidə nəticə verə bilər. Uşaqların və gənclərin sağlam inkişafı naminə narkotiklərə qarşı ictimai immunitetin formalaşdırılması milli vəzifəyə çevrilməlidir.

Nəticə etibarilə, narkomaniya XXI əsrin ən təhlükəli ictimai problemlərindən biridir. Bu problemlə mübarizə yalnız qanunvericilik aktlarının sərtləşdirilməsi ilə deyil, elmi əsaslara, sosial psixologiyaya və humanist dəyərlərə söykənən kompleks yanaşma ilə mümkün ola bilər. Ulu öndər Heydər Əliyevin qeyd etdiyi kimi, bu mübarizə yalnız hüquq-mühafizə orqanlarının yox, bütün cəmiyyətin işi olmalıdır. Hər bir fərd bu problemin ciddiliyini dərk etməli, mübarizənin bir hissəsinə çevrilməlidir. Ancaq bu halda narkomaniya ilə bağlı real nəticələr əldə etmək və cəmiyyətimizin gələcəyini təhlükədən qorumaq mümkün olacaq.

**Nərmin AĞAYEVA,**
**Qəbələ rayon prokurorunun köməkçisi,**
**II dərəcəli hüquqşünas.**

# Kəssə hər kim tökülən qan izini...

## *Milli vəhdət, tarixi birlik nümunəsi*

Tarixin hər üzündə xalqımız düşmən üzərində qələbə çalmış, qanı ilə şanlı səhifələr yazmışdır. Ulu babalardan əmanət olan Azərbaycan torpağının hər qarışını gözü kimi qoruyan xalqımız vətən torpaqlarının müdafiəsi naminə bu yolda candan keçdi. Büdrədik, amma yıxılmadıq, əzmək istədilər, amma həmin anda bir yumruq olaraq düşmənə anındaca zərbəni endirdik. Dövlətimizin rəhbəri ilə bir yerdə eyni amala, istəyə,fikrə sahib oldu xalqımız. Bütün bunlar bizləri daim irəli apardı, bu birləşmə güçümüzü daha da artırdı və sonunda haqlı qələbəni əldə etdik. Çünki vətən sevgisinin güçü, şəhid qanlarının müqəddəsliyi və ən əsası xalq hakimiyyət birliyi, dövlət başçısı İlham Əliyevin düşünülmüş daxili-xarici siyasətinin prinsipləri İkinci Qarabağ müharibəsində Azərbaycanın tam qələbəsi ilə nəticələndi. Azərbaycan xalqı hər zaman böyük humanizmi, əbədi vətən sevgisi, rəhbərinə ehtiram və inam hissi, apardığı daxili, xarici siyasətin tam dəqiqliyinə əminliyi ilə bu qələbəni əldə etdi. Müqəddəs şəhid ruhları qarşısında olan hər bir vətəndaşın mənəvi borcu,ehtiram hissləri və ən başlıcası xalq - hakimiyyət, hakimiyyət - xalq birliyi böyük qələbələrə geniş yol açdı.

Bu cür vəhdət böyük xariqələr yaratdı, bizi mənən böyütdü, vüqarımızı, gücümüzü, qüdrətimizi artırdı və müqəddəs bayrağımızın Qarabağ torpaqlarında əbədi dalğalanması üçün güc verdi. Bütün bunlar bunu bir daha dünyaya sübut etdi ki, qədim tarixə malik olan Azərbaycan xalqı hər bir təhlükəli anda rəhbərinə sadiqdir, inam və etibarı güclüdür, vətən sevgisi hər bir hissdən öndədir. Əlbəttə Azərbaycan xalqı 30 ilə yaxın bir müddət ərzində işğal altında qalan torpaqlarının həsrətini çəkirdi. Yenidən bu torpaqlara qayıtmaq,-bura yeni nəfəs vermək amalı ilə xalqın ürəyində min bir arzusu var idi. Lakin bütün bu illər ərzində Qarabağ problemini həll edə biləcəyinə dünyanı inandıran beynəlxalq qurumlar heç bir faydalı iş görə bilmədi. Azərbaycan öz gücünə bu məsələni uğurla həll etdi. 30 il ərzində xalqımız çox dözdü, səbrlə, təmkinlə haqq-ədalətin qalib gələcəyini ümid edərək sonunda Qələbəni əldə etdi. Əldə olunmuş Qələbə ədalətin təntənəsi, vətən sevgimizin, vəhdətimizin ən böyük nümunəsi oldu. Bu tarix Azərbaycan xalqının ürəyində əbədi yaşayacaq. Bu, milli qürurumuzun, ləyaqətimizin, şərəfimizin təntənəsi idi, Azərbaycan xalqının əyilməz ruhunun, sarsılmaz iradəsinin və ən nəhayət vəhdətimizin təntənəsi idi. Bu amillər bizim gücümüzə güc qatdı və bütün gücümüzü səfərbər edib müharibədə Qələbə qazanaraq düşməni torpaqlarımızdan qovduq. Müharibə nəticəsində Ermənistan ordusunu tamamilə məhv etdik.

30illik danışıqlar prosesi ərzində Azərbaycan yalnız konstruktiv mövqedən çıxış etmişdir. Azərbaycan 30 il ərzində münaqişənin həlli yolunu ancaq sülhdə, dövlətlərarası razılıqda gördü. Bu münaqişənin həlli üçün danışıqlar prosesində bir dövlət olaraq hər zaman beynəlxalq hüquqa, münaqişənin sülh yolu ilə həllinə üstünlük vermişik. Dövlət olaraq, xalq olaraq qəti şəkildə fikrimizi, niyyətimizi, amalımızı bütün dünyaya bəyan etmişik. Lakin təəssüflər olsun ki, Ermənistan bu məsələdə hər zaman dəqiq fikir bildirməmiş, sözü və əməli tamamilə tərs mütənasib olmuşdur.

Dövlət başçısı İlham Əliyev hər zaman nitqində bildirmişdir ki, Azərbaycan öz fəaliyyətini beynəlxalq hüquqa, ədalətə və qlobal təhlükəsizliyə əsaslanaraq həyata keçirməkdə davam edəcək.

Sülh carçısı Azərbaycan-güclü lider, qalib Azərbaycan!

Bildiyimiz kimi, 8 avqust 2025-ci il tarixdə Birləşmiş Ştatların paytaxtında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donalt Trampın görüşü baş tutub. Bakı ilə İrəvan arasında Sülh Sazişinin bağlanılması məqsədilə təşkil olunmuş bu görüş beynəlxalq arenada diqqət mərkəzində oldu. Bu bir tarixi hadisə, yüksək səviyyəli görüş, eyni zamanda Azərbaycanın ən böyük qələbəsi oldu. Sülhün əldə olunması üçün Birgə Bəyannamə imzalandı ki, bu da Azərbaycanın hər zaman haqlı olduğunu, o cümlədən dövlət başçısı İlham Əliyevin sülh banisi kimi beynəlxalq arenada nüfuzunu bir daha təsdiqlədi. İlham Əliyevin hər zaman sülhü dəstəkləyən lider, regionun inkişafı naminə Azərbaycanın danışıqların aparılmasına hazır olduğunu dünya dövlətləri aydın şəkildə müşahidə etmiş, əməli nəticəsini isə bu gün gördü. Ümumiyyətlə, avqustun 8-də Vaşinqtonda baş verən hadisələr Cənubi Qafqazda qarşıdurmanın və gərginliyin sonu deməkdir. Fateh sərkərdə İlham Əliyev Azərbaycanın uğurlu gələcəyi, o cümlədən Azərbaycanla Ermənistanın sülh şəraitində yaşaması, müharibənin bir daha baş verməməsi, konfliktin aradan qaldırılması, əmin-amanlığın bərpası naminə ümumi bir fikir yürüdüb: "Sülh, sülhün əldə edilməsi". Əlbəttə xalq olaraq gələcək nəsillərin və ümumi olaraq Cənubi Qafqazda əmin-amanlıq şəraitinin bərqərar olması, iqtisadiyyatın gücləndirilməsi üçün dövlət başçısının fikrini dəstəkləmişik və daxili, xarici siyasətini alqışlamışıq.

30ilə yaxın bir müddət ərzində Minsk Qrupunun reallıqla əlaqəsi olmayan, yalnız sənədlər üzərindən fəaliyyətini nümayiş etdirən bir qurum olduğu, bir sözlə fəaliyyətinin sıfıra bərabər olması təsdiqləndi. 30 ilə yaxın bir zaman ərzində xalqımız səbr, təmkin nümayiş etdirdi, güclü liderimizin uzaqgörən siyasətinə arxalanaraq kağız üzərində qalmış qərarları gücümüz vasitəsilə həll etdik. Minsk qrupu bu illər ərzində tam fəaliyyətsiz olduğunu sübut etdi, baş verənlərə real qiymət vermədi, birtərəfli mövqe nümayiş etdirdi. Bu gün Minsk Qrupunun ləğv edilməsi labüddür, bu qurum rəsmən tarixin arxivinə göndərilir. Azərbaycan tərəfindən sülh müqaviləsinin imzalanması üçün ATƏT-ə birgə müraciət edilib. Müraciətə əsasən Ermənistan Konstitusiyasına dəyişikliklər edilərək, Azərbaycana qarşı ərazi iddiaları aradan qaldırmalıdır. Ermənistan tərəfindən qəbul edilən bu məsələ ABŞ prezidenti Donald Trampın şahidliyi, Azərbaycan prezidenti İlham Əliyev ilə Ermənistan baş naziri Nikol Paşinyan arasında Vaşinqton görüşünün nəticəsi olaraq Birgə Bəyannamədə də əksini tapıb. Ümumiyyətlə Azərbaycan prezidenti İlham Əliyev sülh tərəfdarı kimi Azərbaycanın ərazi bütövlüyünü əsas məsələ olaraq diqqətdə saxlayıb. Bu gün də Vaşinqtonda imzalanan sənədin əhəmiyyəti ondan

(Ardı 8-ci səhifədə).